**УДК 347**

**Günay Səhhət qızı Əliyeva**
**AMEA Hüquq və İnsan Haqları İnstitutunun "Mülki hüquq, mülki proses və sosial-iqtisadi hüquq" şöbəsinin elmi işçisi**
**e-mail: gunay-aliyeva-2019@mail.ru**

***Açar sözlər:*** *Azərbaycan, Apellyasiya icraatı, mülki proses, tarix, hüquq, müddət, məcəllə*

***Ключевые слова:*** *Азербайджан, апелляционное производство, гражданский процесс, история, право, срок, кодекс*

***Key words:*** *Azerbaijan, appeal proceedings, civil process, history, law, term, code*

# MÜLKİ PROSESDƏ APELLYASİYA İCRAATI

"Apellyasiya" sözü latın dilində "appellatio – müraciət" mənasını ifadə edir. Hüquq ədəbiyyatında göstərilir ki, apellyasiya qanuni qüvvəyə minməmiş məhkəmə aktlarının prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada yuxarı instansiyaya məhkəməsində yoxlanılması prosedurudur.

Məhkəmə qərarlarından şikayət verilməsi institutu kimi apellyasiya bizim eranın III əsrinin sonlarında qədim Romada yaranmağa başlayaraq imperator Yustinianın dövründə tam təşəkkül tapmışdır (527-565-ci illərdə).

İlk dövrlərdə qeyri-məhdud sayda apellyasiya şikayətinin verilməsi mümkün idi. Ulpian apellyasiyanın zəruriliyini qeyd edərək demişdir: "Apellyasiya ədalətsizliyi yaxud hakimlərin təcrübəsizliyini aradan qaldırır".

Yustinian dövründən başlayaraq eyni iş üzrə iki dəfədən artıq apellyasiya şikayətinin verilməsi qadağan olunmuşdur [1, s. 6, 11].

Azərbaycanda apellyasiya icraatının yaranması ilə bağlı qeyd etmək istərdik ki, sivilizasiyanın ən qədim ocaqlarından biri sayılan Azərbaycanın quldarlıq dövlətlərində “apellyasiya” termininə tarixi mənbələrdə rast gəlinmir. X.C.İsmayılov haqlı olaraq göstərir ki, qədim Misirdəki şah Bakxorisin qanunları, qədim Babilistandakı Xammurapi qanunları, qədim Hindistandakı Manu qanunları, qədim Romadakı XII cədvəl qanunları kimi hüquq abidələrinin qədim Azərbaycanda olmaması dövlət idarəçiliyi və hüquqla bağlı məsələlərin tam mənzərəsini əks etdirməyə imkan vermir [2, s. 27].

VII əsrin sonu – VIII əsrin əvvəllərinə yaxın islam dini Azərbaycanda hakim dinə çevrildikdən sonra, islam dininin ayrılmaz bir hissəsi olan şəriət və müsəlman hüququ Azərbaycanın hüquq sistemində mühüm rol oynamağa başlamışdır. Mülki mübahisələrə qazılar baxırdılar Həmin dövrlərdə də “apellyasiya” termininin işlədilməməsinə baxmayaraq, qazının çıxardığı qərardan narazı qalanlar qazı əl-qüzzatın başçılıq etdiyi məhkəmə nəzarət divanına müraciət edə bilərdilər.

Məhkəmə qərarlarından apellyasiya şikayəti verilməsi ilə əlaqədar XIX əsrdə qüvvədə olan Azərbaycan qanunvericiliyinə müraciət etdikdə görürük ki, həmin dövrdə Çar Rusiyasının tərkibində olan Şimali Azərbaycanda Rusiya qanunları tətbiq edilirdi. Hakimlər məhkəmə qərarını elan edərkən apellyasiya şikayəti verilməsi müddətini də xüsusi qeyd etməli (mütləq yazılı formada əks etdirilməklə) və tərəflərin bu müddəti buraxmasının nəticələri barədə onlara izahat verməli idilər.

1920-ci il aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası elan olunduqdan sonra Azərbaycan SSR Hərbi İnqilab Komitəsi 1920-ci il 12 may tarixdə “Xalq məhkəmələri haqqında” və 1920-ci il 12 iyul tarixdə “Münsiflər məhkəməsi haqqında” dekret vermişdir. Bu dekterlər mülki prosessual hüquqa dair ilk aktlar idi.

Mülki işlərdə növbə ilə iki nəfər xalq iclasçısının iştirakı nəzərdə tutulmuşdu. “Xalq məhkəmələri haqqında” Dekretin 74-cü maddəsinə əsasən mülki işlər üzrə məhkəmə qətnaməsindən qətnamə elan edildiyi gündən bir ay müddətində kassasiya qaydasında Xalq Hakimləri Şurasına birbaşa və ya qətnaməni çıxarmış məhkəmə vasitəsilə şikayət etmək olardı.

“Münsiflər məhkəməsi haqqında” Dekretdə xüsusi məhkəmələrə aid olan işlər istisna olmaqla, digər mülki işlərə, o cümlədən sosial sığorta ilə bağlı işlərə və bəzi xırda cinayət işlərinə münsiflər məhkəməsində baxılması nəzərdə tutulmuşdu. Münsiflər məhkəməsinin qətnaməsindən verilən kassasiya şikayəti bir ay müddətində Xalq Hakimləri Şurasına göndərilirdi [3, s. 385-386].

Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1925-ci il 17 yanvar tarixli qərarı ilə Azərbaycan SSR-in ilk Mülki Prosessual Məcəlləsi qəbul edilmişdir. 5 hissə, 36 fəsil və 316 maddəni əhatə edən həmin Məcəllə məhkəmə qətnamələrindən kassasiya və nəzarət qaydasında şikayət verilməsi məsələlərini də tənzimləyirdi.

Beləliklə, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra SSRİ-nin tərkibində olan digər müttəfiq respublikalarda olduğu kimi, məhkəmə aktlarından apellyasiya şikayətinin verilməsi kassasiya və nəzarət qaydasında şikayətin verilməsi ilə əvəz olundu. Ümumiyyətlə, Sovet hakimiyyətinin mövcud olduğu 70 il ərzində Azərbaycanın normativ hüquqi aktlarında “apellyasiya” terminindən istifadə edilməmişdir.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra 1997-ci il 10 iyun tarixdə Azərbaycan Respublikasında ədalət mühakiməsinin həyata keçirilməsini təmin etmək məqsədilə “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Həmin Qanunun 61-69-cu maddələri apellyasiya məhkəməsinə həsr olunmuşdur [4]. Qeyd olunan Qanunun 61-ci maddəsində deyilir: “Azərbaycan Respublikası Konstitusiyasının 132-ci maddəsinin İ hissəsinə müvafiq olaraq apellyasiya məhkəməsi mülki, inzibati və iqtisadi mübahisələrə dair, cinayət və inzibati xətalara dair işlər üzrə yuxarı instansiya məhkəməsidir.

Apellyasiya məhkəməsinin təşkili, olduğu yer və ərazi yurisdiksiyası Məhkəmə-Hüquq Şurasının təklifi nəzərə alınmaqla 12 noyabr 1995-ci il tarixli Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir”.

M.A.Mövsümov və F.A.Cabbarlı göstərirlər ki, apellyasiya qaydasının təxmini xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

- apellyasiya şikayətlərinin və protestinin predmeti birinci instansiya məhkəməsinin qanuni qüvvəyə minməmiş qərarlarıdır;
- apellyasiya qaydasında işə birinci instansiya məhkəməsindən bir pillə yuxarıda duran məhkəmə baxır;
- apellyasiya məhkəməsi şikayət (protest) verilən qərarın həm qanuniliyini, həm də əsaslılığını yoxlayır;
- apellyasiya məhkəməsi şikayətdəki (protestdəki) dəlillərlə bağlı deyil, işi tam həcmdə yoxlayır;
- apellyasiya məhkəməsi geniş səlahiyyətlərə malik olsa da (iş üzrə yeni qətnamə çıxarmaq kimi) həmişə məhkəmə-nəzarət orqanı kimi qalır və birinci instansiya məhkəməsini əvəz etmir [5, s. 277-278].

Mülki mühakimə icraatının effektliyini artırmaq məqsədilə 1 sentyabr 2000-ci ildən qüvvədə olan Azərbaycan Respublikasının yeni Mülki Prosessual Məcəlləsində ilk dəfə olaraq birinci instansiya məhkəmələri tərəfindən qəbul olunmuş qanuni qüvvəyə minməmiş qətnamə və qərardadlardan apellyasiya şikayətinin verilməsinin mümkünlüyü əks olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 41-ci fəsli apellyasiya instansiyası məhkəməsində icraata həsr olunmuşdur və həmin fəsildə öz əksini tapmış Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin "Apellyasiya şikayəti vermək hüququ" adlanan 357-ci maddəsidə deyilir: "Azərbaycan Respublikasının birinci instansiya məhkəmələri tərəfindən qəbul olunmuş qanuni qüvvəyə minməmiş qətnamə və qərardadlardan, həmin Məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla, tərəflər, üçüncü şəxslər, xüsusi icraat işlərində ərizəçilər və maraqlı şəxslər apellyasiya şikayəti verə bilər.

Həmin hüquqa, işdə iştirak etməyə cəlb edilməyən, lakin qəbul edilən qətnamə onların hüquq və vəzifələrinə toxunan hallarda digər şəxslər də malikdir. Prokuror bu Məcəllənin 50-ci və 306-cı maddələrində göstərilən hallarda məhkəmə baxışında iddiaçı və ya ərizəçi olarsa, məhkəmə aktlarından protest verə bilər.

Prokurorun protesti iştirak etdiyi iş üzrə onun tərəfindən apellyasiya instansiyası məhkəməsinə verilən şikayətdir və öz hüquqi mahiyyətinə, hüquqi nəticələrinə görə apellyasiya şikayətinə bərabər tutulur" [6].

Analoji norma postsovet respublikalarından 14 noyabr 2002-ci il tarixli Rusiya Federasiyası Mülki Prosessual Məcəlləsinin 320-ci maddəsində [7], 18 mart 2004-cü il tarixli Ukrayna Mülki Prosessual Məcəlləsinin 292-ci maddəsində [8], 30 may 2003-cü il tarixli Moldova Respublikası Mülki Prosessual Məcəlləsinin 357, 360 və 361-ci maddələrində [9], 31 oktyabr 2015-ci il tarixli Qazaxstan Respublikası Mülki Prosessual Məcəlləsinin 401-ci maddəsində [10], 30 avqust 1997-ci il tarixli Özbəkistan Respublikası Mülki Prosessual Məcəlləsinin 320-ci maddəsində [11] və 20 yanvar 2017-ci il tarixli Qırğızıstan Respublikası Mülki Prosessual Məcəlləsinin 323-cü maddəsində təsbit olunmuşdur [12].

Apellyasiya şikayəti onu vermək hüququ olan şəxslərin birinci instansiya məhkəməsinin qətnaməsi ilə pozulmuş hesab etdikləri hüquqlarının və ya qanunla qorunan mənafelərinin müdafiə, yaxud təsdiq olunması üçün apellyasiya instansiyası məhkəməsinə müraciətinin prosessual formasıdır. Apellyasiya icraatının başlanması üçün iki prosessual hərəkətin edilməsi tələb olunur: 1) apellyasiya şikayətinin verilməsi; 2) apellyasiya şikayətinin apellyasiya instansiyası məhkəməsinin icraatına qəbul edilməsi, yəni apellyasiyanın mümkün hesab edilməsi.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi "2000-ci ilin sentyabrın 1-dək mülki işlər üzrə çıxarılmış məhkəmə aktlarından şikayət vermək hüququnun mümkünlüyü haqqında" 03 avqust 2001-ci il tarixli Qərarının təsviri-əsaslandırıcı hissəsində İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsinə istinad edərək göstərmişdir ki, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 6-cı maddəsinin tələbləri mülki və cinayət işlərinin ədalətli həll olunması ilə bağlı nəinki birinci instansiya məhkəmələrinə, həmçinin apellyasiya instansiyalarına da aiddir. Bu tələb birinci instansiya məhkəmələrinin qərarlarından (aktlarından) verilmiş şikayətlər əsasında apellyasiya və kassasiya qaydasında baxılan işlərin ədalətli həll olunmasına yönəlmişdir [13].

Birinci instansiya məhkəməsi tərəfindən qəbul olunmuş qətnamədə maddi və ya prosessual hüquq normalarının pozulması yaxud düzgün tətbiq edilməməsi, məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyət daşıyan bütün faktiki halların aydınlaşdırılmamasının müəyyən edilməsi, həmin qətnamənin apellyasiya məhkəməsi tərəfindən ləğv eilməsi üçün əsasdır. 1 sentyabr 2000-ci ildən qüvvədə olan Azərbaycan Respublikasının yeni Mülki Prosessual Məcəlləsində öz əksini tapmış əsas yeniliklərdən biri odur ki, apellyasiya məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsini ləğv etdiyi təqdirdə, həmin mülki işi yenidən baxılmaq üçün birinci instansiya məhkəməsinə göndərmədən özü mahiyyəti üzrə yeni qətnamə qəbul etməlidir. Yəni Azərbaycan Respublikasının 11 sentyabr 1964-cü il tarixli keçmiş Mülki Prosessual Məcəlləsindən fərqli olaraq apellyasiya məhkəməsi ikinci instansiya məhkəməsi kimi mülki işə baxarkən birinci instansiya məhkəməsinin qətnaməsini ləğv etdiyi təqdirdə, həmin mülki işə yenidən başqa məhkəmə tərkibi ilə baxılması üçün birinci instansiya məhkəməsinə göndərmək səlahiyyətinə malik deyildir. Qanunvericilikdə əks olunmuş, olduca təqdirəlayiq olan bu yenilik bir mülki işə məhkəmələrdə aylarla, bəzən illərlə baxılmasının qarşısını alır.

Beləliklə, aparılmış tədqiqatlar aşağıdakı nəticələrə gəlməyə imkan verir.

1) Apellyasiya icraatı ilk dəfə qədim Romada yaranmışdır.
2) VII əsrin sonu – VIII əsrin əvvəllərinə yaxın Müsəlman hüquq normaları Azərbaycanda yayıldıqdan sonra mülki mübahisələrə qazılar baxırdılar. Həmin dövrlərdə "apellyasiya" termini işlədilməsə də, qazının çıxardığı qərardan narazı qalanlar qazı əl-qüzzatın başçılıq etdiyi məhkəmə nəzarət divanına müraciət edə bilərdilər. Çar Rusiyasının tərkibində olan Şimali Azərbaycanda Rusiya qanunları tətbiq edilirdi və həmin dövrdə mülki işlərdən apellyasiya şikayətinin verilməsi mümkün idi.
3) Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra "apellyasiya" terminindən imtina olunaraq normativ hüquqi aktlarda mülki işlərdən kassasiya və nəzarət qaydasında şikayət verilməsinin mümkünlüyü göstərilirdi.

4) Azərbaycan müstəqillik qazandıqdan sonra 10 iyun 1997-ci il tarixdə qəbul edilmiş "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda apellyasiya məhkəməsinə həsr olunmuş normalar öz əksini tapmışdır. 1 sentyabr 2000-ci ildən qüvvədə olan Azərbaycan Respublikasının yeni Mülki Prosessual Məcəlləsində ilk dəfə olaraq birinci instansiya məhkəmələri tərəfindən qəbul olunmuş qanuni qüvvəyə minməmiş qətnamə və qərardadlardan apellyasiya şikayətinin verilməsinin mümkünlüyü əks olunmuşdur.

**İstifadə edilmiş ədəbiyyat**

1. Борисова Е.А. Апелляция в гражданском (арбитражном) процессе. М.: Городец, 2008, 224 с.
2. İsmayılov X.C. Azərbaycanın dövlət və hüquq tarixi.Bakı: Nurlan, 2006, 720 s.
3. Əkbərov R.A., Səlimov S.M. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı: Hüquq ədəbiyyatı, 2003, 488 s.
4. "Məhkəmələr və hakimlər haqqında" 1997-ci il 10 iyun tarixli Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2007, 56 s.
5. Mövsümov M.A., Cabbarlı F.A. Azərbaycan Respublikasının mülki prosessual hüququ. Bakı: Qanun, 1998, 330 s.
6. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi. Bakı: Hüquq Yayın Evi, 2017, 500 s.
7. Гражданский процессуальный кодекс Российской Федерации от 14 ноября 2002 года. http://www.consultant.ru/document/cons_doc_LAW_39570/
8. Гражданский процессуальный кодекс Украины от 18 марта 2004 года. http://meget.kiev.ua/kodeks/gpk/
9. Гражданский процессуальный кодекс Республики Молдовы от 30 мая 2003 года.

http://lex.justice.md/index.php?action=view&view=doc&lang=2&id=286229

10. Гражданский процессуальный кодекс Республики Казахстан 31 октября 2015 года.
https://online.zakon.kz/Document/?doc_id=34329053#pos=0;0
11. Гражданский процессуальный кодекс Республики Узбекистан от 30 августа 1997 года. http://fmc.uz/legisl.php?id=k_grajd_pr
12. Гражданский процессуальный кодекс Кыргызской Республики от 20 января 2017 года. http://cbd.minjust.gov.kg/act/view/ru-ru/111521
13. “2000-ci ilin sentyabrın 1-dək mülki işlər üzrə çıxarılmış məhkəmə aktlarından şikayət vermək hüququnun mümkünlüyü haqqında” 03 avqust 2001-ci il tarixli Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Qərarı. http://www.constcourt.gov.az/decisions/46

**Гюнай Алиева**
**Научный работник Института Права и Прав Человека Национальной Академии Наук Азербайджана**

## Апелляционное производство в гражданском процессе

### Резюме

В статье указывается, что апелляционное производство в гражданском процессе означает обращение. Общий смысл, вкладываемый в определение апелляции, заключается7 в обжаловании не вступивших в законную силу решений и определений судов первой инстанции с целью исправить судебную ошибку.

**Gunay Aliyeva**
**Scientific worker of the Institute of Human Rights and Rights of the Azerbaijan National Academy of Sciences**

## Appeal proceedings in civil proceedings

**Summary**

The article states that appeal proceedings in the civil process means treatment. The general meaning attached to the definition of an appeal is to appeal against decisions that have not entered into legal force and the rulings of the courts of first instance with a view to rectifying a judicial error.